*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 23 may 2018-ci il № 39 (2255) Qiyməti 25 qəpik


# Ərazi bütövlüyümüz bərpa olunacaq!



Ulu Öndərin möhtəşəm siyasi kursunu böyük uğurlarla davam etdirən, istər daxili, istərsə də xarici siyasətini azərbaycançılıq ideologiyası əsasında aparan İlham Əliyev yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi. Bu böyük inamdır, etibardır, güvəncdir. Bu inam həm ölkənin iqtisadi qüdrətinin daha da sürətləndiriləcəyinə, əhalinin rifah halının daha da yaxşılaşdırılacağına, ədəbiyyatımızın, incəsənətimizin, mədəni irsimizin dünya ədəbiyyatına, incəsənətinə daha sürətlə, daha şəbəkəli inteqrasiya olunacağına, həm də torpaqlarımızın işğaldan azad ediləcəyinə inamdır. 2016-cı ilin aprelində qazanılan qələbəni yüksək dəyərləndirən ölkə Prezidentinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin sülh yolu ilə həlli istiqamətində bundan sonra da qətiyyətli, prinsipial mövqeyi ilə beynəlxalq təşkilatların, dünyanın aparıcı dövlətlərinin bu problemin tezliklə Azərbaycanın ərazi bütövlüyü müstəvisində həllinə təsir göstərməsi üçün xarici siyasətini uğurla davam etdirəcəyinə inamdır.

Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən keçirilən "Sənə inanırıq, ölkə rəhbəri, sənə güvənirik, Vətən əsgəri!" kütləvi vətənpərvərlik tədbirində təsdiqlənən mahiyyət indi daha dönməzdir; xalq 2016-cı ilin aprelində ordusuna hansı səviyyədə güvəndiyini, 2018-ci ilin aprelində ölkə rəhbərinə hansı dönməz ehtiramlarla inandığını bir daha təsdiqlədi. O da təsdiqləndi ki, Ali Baş Komandanın hər əmrinə hazır olan Azərbaycan əsgərinin gücü, qüdrəti xalq-ordu birliyinin möhtəşəmliyinə söykənir...

**(Ardı 2-ci səhifədə)**

# Ərazi bütövlüyümüz bərpa olunacaq!



(Əvvəli 1-ci səhifədə)

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyi hər yerdə, o cümlədən hərbi hissə və birləşmələrdə, əlahiddə orduda böyük ehtiramlarla, böyük coşqu ilə qeyd edildi. Bütün tədbirlər bir mahiyyətin şaxələriydi - unudulmayan, unudulmayacaq dahi tarixi şəxsiyyət əbədiyyən yaşayacaq. Tədbirlər təsdiqlədi ki, "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" - kəlamı azərbaycançılıq ideologiyasının ilkin tezisidir.

Ulu Öndərin anadan olmasının 95 illiyi ilə əlaqədar keçirilən dövlət tədbirində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxış etdi. Bu çıxış böyük tarixi şəxsiyyətin ömür yolunun azərbaycançılıqla nə qədər sıx bağlı olduğunu təsdiqlədi. Ölkə Prezidenti qlobal siyasi proseslər fonunda bu ideologiyanın hansı gərginliklərlə üzləşdiyini, dahi şəxsiyyətin bu gərginlikləri necə aradan qaldırdığını, sevdiyi, ömrünü həsr etdiyi Azərbaycanın dövlətçiliklə bağlı problemlərinin hansı qətiyyətlə həll olunduğunu xatırlatdı. Bu çıxış ümumxalq sevgisinin necə formalaşdığını da ifadə edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev istər ölkə daxili, istərsə də beynəlxalq tədbirlərdə çıxışlarında birmənalı şəkildə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemini də xatırladır, onun ölkə üçün ən ciddi məsələ olduğunu bildirir, real siyasi nüfuza, hərbi güvəncə əsaslanan ciddi bəyanatlar verir. Bu bəyanatlar həm işğalçı dövlətə, həm onun havadarlarına, həm də beynəlxalq təşkilatlara ünvanlanır. Hansı tribunadan səsləndirilməsindən asılı olmayaraq bəyanatların hər biri Azərbaycan dövlətinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həllində dəyişməz (və dəyişməyəcək!) qətiyyətli mövqeyini ifadə edir. Ölkə Prezident çıxışlarının birində demişdi: "Biz Azərbaycanda ikinci erməni dövlətinin yaradılmasına heç zaman imkan verməyəcəyik" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu fikrini Ulu Öndərin 95 illiyinə həsr olunmuş dövlət tədbirində də bildirdi: "Azərbaycan xalqı və dövləti heç vaxt imkan verməz ki, Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın". Azərbaycançılıqdan rişələnən bu mövqe qətiyyətin, xarici siyasətin dönməzliyinin, kəsilməzliyinin təsdiqidir. Ermənistan bu qətiyyətin nəyə (dövlətin, deməli, ordunun gücü, dövlətin iqtisadi potensialı, ordu ilə xalqın birliyi, dövlətə, dövlətçiliyə sədaqət,...) söykəndiyini, problem sülh yolu ilə həll edilməzsə, nə olacağını (başlanğıcı 1994-cü ilin yanvarında Horadiz əməliyyatı olan 2016-cı ilin aprelində vətənsevərlik döyüşləri) dərk etməlidir. Bu ciddi bəyanat işğalçı dövləti də, havadarlarını da, beynəlxalq təşkilatları da Cənubi Qafqazda sülhün, ədalətin bərqərar olması üçün ciddi düşündürməlidir. Belə bir problemin həllinə ikili münasibət, əslində, mövqesizlikdir; beynəlxalq təşkilatların mövqesizliyinə son qoyulmalıdır...

"Tərəfdaşlarımızla qarşılıqlı maraqlar üzərində qurduğumuz münasibətlər, düzgün xarici siyasət bizə imkan verir ki, beynəlxalq arenada öz gücümüzü, təsir imkanlarımızı artıraq..." - deyən ölkə Prezidenti çıxışında xatırladır ki, bundan sonra da "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim prinsipial mövqeyimiz dəyişməz olaraq qalır". Ölkə Prezidentinin dediyi kimi, Azərbaycanla "bərabərhüquqlu, gözəl, konstruktiv münasibətləri olan ölkələr", təbii ki, tərəfdaşının prinsipial mövqeyini həssaslıqla dəyərləndirəcək, bunu xarici siyasəti üçün prioritet biləcək. Xatırlayacaq ki, Azərbaycan Prezidentinin Cocuq Mərcanlının yenidən qurulması haqqında imzaladığı sərəncam (sərəncam böyük məsuliyyətlə yerinə yetirildi!) torpaqlarımızın işğaldan azad ediləcəyinə inamın təzahürü olmaqla, dövlətin yaxın gələcəkdə daxili siyasətinin istiqamətini müəyyənləşdirir.

"BMT Təhlükəszlik Şurasının dörd qətnaməsi icra edilməlidir", - deyən Azərbaycan Respublikasının Prezidenti bildirir: "Bu qətnamələrdə açıq-aydın göstərilir ki, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxmalıdır. Münaqişənin digər həlli yolları yoxdur. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil, heç vaxt olmayıb və heç vaxt olmayacaqdır...". Bu qətiyyətli bəyanat belə bir münaqişənin həlli istiqamətində ikili standartlara son qoyulması zərurətini xatırlatma olmaqla, beynəlxalq münasibətlər müstəvisində haqlı tələb kimi səslənir: "Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bunu tarix deyir, mədəniyyət deyir, bunu beynəlxalq hüquq deyir..."...

Ermənistan təmas xəttində atəşkəsi pozanda, təxribatlar törətməyə cəhd göstərəndə yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malik olan Azərbaycan Ordusunun hissələri bunun qarşısını qətiyyətlə alır. 2016-cı ilin aprelində irimiqyaslı təxribat törətmək istəyən Ermənistanın xeyli döyüş texnikası məhv edildi, əsgər və zabiti həlak oldu, 2000 hektardan çox ərazi ermənisizləşdirildi, daha çox ərazi Azərbaycan Ordusunun hissələrinin nəzarətinə keçdi, Lələtəpə, Bayraqtəpə kimi mühüm yüksəkliklərdə indi Azərbaycan bayrağı dalğalanır. Ermənistan gördü ki, Azərbaycan Ordusu torpaqlarını işğaldan döyüşlə azad etməyə qadirdir, problem sülh yolu ilə həll edilməzsə, BMT Baş Assambleyasının Qoşulmama Hərəkatının, Avropa Şurasının, Avropa Parlamentinin, İslam Əməkdaşlıq Təşkilatının və digər təşkilatların bu münaqişə ilə bağlı bizim mövqeyimizi, ədaləti əks etdirən qərar və qətnamələri yerinə yetirilməzsə, daha ağır itkilərə məruz qalacaqdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Aprel döyüşləri dərsliklərə salınmalıdır" fikri aprel zəfərinə verilən hərbi, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun "...aprel zəfərimiz orduda yüksək vətənpərvərlik tərbiyəsinin nəticəsidir və döyüş ruhunun qələbəsidir" fikri ordumuzun həm döyüş, həm də mənəvi-psixoloji hazırlığının səviyyəsinə verilən dəyərdir; belə bir ordu Ali Baş Komandanın döyüş əmrini qələbəylə tamamlamağa, Böyük Qələbəni təmin etməyə qadirdir.

Ən böyük azərbaycanlı kimi yaşayan (və yaşayacaq!) böyük tarixi şəxsiyyət Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş dövlət tədbirində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı bir daha təsdiqlədi ki, Azərbaycan dövlətçiliyi tarixin cığırdaşı olacaq, onun ərazi bütövlüyü bərpa ediləcək. Çünki Azərbaycanın düzgün xarici siyasəti var, çünki "Azərbaycan Ordusu nəinki bölgədə, dünya miqyasında güclü ordular sırasındadır", çünki "...beynəlxalq aləm, bütün ölkələr Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır", çünki Azərbaycanda xalq ordunun, ordu xalqın dayağıdır, çünki Azərbaycanda hər bir vətəndaş Vətən üçün bir əsgərdir, çünki haqq müəyyən səbəblərdən nazilir, ancaq üzülmür, çünki, Ulu Öndərin 95 illiyinə həsr olunmuş dövlət tədbirində ölkə Prezidentinin dediyi kimi, "...bizim hərbi gücümüz gündən-günə artır. İki il əvvəl Azərbaycan Ordusu Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğaldan azad etmişdir və o torpaqlarda - bizim doğma torpaqlarımızda bu gün Azərbaycan bayrağı dalğalanır...". Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "...Azərbaycan bayrağı... Şuşada və Xankəndidə dalğalanacaqdır" - inamı xalqın inamıdır. Xalq Prezidentinə inanır, ordusuna güvənir. Azərbaycanın ərazi bütövlüyü yaxın vaxtlarda bərpa olunacaq!..

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistanın növbəti təxribatı nəticəsində hərbi qulluqçumuz şəhid olub

Mayın 20-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Naxçıvan Muxtar Respublikası sahəsində düşmən tərəfinin növbəti təxribatının qarşısını alarkən, döyüş tapşırığını yerinə yetirən zaman Azərbaycan Ordusunun hərbi qulluqçusu əsgər Tatarov Adil Əli oğlu şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, səbr diləyir.

Müdafiə Nazirliyi bildirir ki, törədilən təxribatın arxasında bir neçə gün əvvəl qoşunların bu istiqamətdə yerləşən qarşıdurma xəttində səfərdə olan Ermənistanın yeni təyin edilmiş müdafiə və xarici işlər nazirləri birbaşa dayanır və bu təxribatın onların göstərişi ilə həyata keçirilməsi istisna olunmur.

Ermənistan rəhbərliyi bilməlidir ki, Naxçıvanın qəhrəman müdafiəçiləri şəhidin qisasını qısa müddətdə alacaq.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

__22 may 2018-ci il.__

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 88 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qaymaqlı, Quşçu Ayrım kəndlərində, Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Nəmirli, Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Qaraqaşlı, Kəngərli, Novruzlu, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Hərbi topaqrofların hərbi-elmi konfransı keçirilib

2018-ci ilin elmi iş planına uyğun olaraq, "Müasir silah və hərbi texnikanın idarəetmə sistemlərində rəqəmli topoqrafik və dəniz naviqasiya xəritələrinin tətbiqi" mövzusunda hərbi-elmi konfrans keçirilib.

Konfransda birlik, birləşmələrin topoqrafiya və hidroqrafiya xidmət rəisləri, xüsusi təyinatlı təhsil müəssisələrində hərbi topoqrafiya fənnini tədris edən müəllimlər iştirak ediblər.

Tədbirdə topoqrafik və dəniz naviqasiya xəritələrinin müasir standartları, onların əhəmiyyəti, hazırlanması və istifadəsi, müasir silah və hərbi texnikanın idarəetmə sistemlərində rəqəmli xəritələrin tətbiqi mövzuları ətrafında müzakirələr aparılıb.




# Azərbaycan nümayəndə heyəti "Beynəlxalq Ordu Oyunları - 2018" yarışlarının planlaşdırma konfransında iştirak edir

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müavini - Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanovun rəhbərlik etdiyi nümayəndə heyəti "Beynəlxalq Ordu Oyunları-2018" yarışlarının mayın 25-dək Moskvada keçirilən 3-cü planlaşdırma konfransında iştirak edir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, "Beynəlxalq Ordu Oyunları-2018" yarışlarının iyulun 29-dan avqustun 11-dək yeddi ölkənin - Azərbaycan, Rusiya, Belarus, Qazaxıstan, Çin, İran və Ermənistan ərazisində keçirilməsi planlaşdırılır.

# Qazaxda Azərbaycan Xalq Cümhuriyyətinin hərb xadimləri anılıb

*Müdafiə Nazirliyi və Qazax rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyəti dövründə Milli Ordunun təşkilində müstəsna xidmətləri olmuş görkəmli hərbi xadimlər general-mayor Cavad bəy və polkovnik Rüstəm bəy Şıxlinski qardaşlarının anım mərasimi keçirilib.*



Rayon rəhbərliyi, hərbi qulluqçular, ictimaiyyət nümayəndələri və qonaqlar əvvəlcə Qazaxın Fəxri sakinlər parkı ilə tanış olub, rayonun yetirmələri olan elm, mədəniyyət, incəsənət xadimlərinin, eləcə də adları dünya hərb tarixinə qızıl hərflərlə yazılmış "artilleriyanın Allahı" general-leytenant Əlağa Şıxlinskinin, ilk azərbaycanlı general-topoqraf İbrahim ağa Vəkilovun, ilk azərbaycanlı hərbi təyyarəçi Fərrux ağa Qayıbovun və digər qəhrəmanların xatirəsini ehtiramla yad ediblər.



Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirə kompleksi ziyarət olunub, əbədi məşəl qarşısına qərənfillər düzülüb.

Nəriman Nərimanov adına istirahət parkında keçirilən anım mərasimini Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov açaraq deyib: "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi və 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" adlandırılması haqqında sərəncamlarını bütün xalqımız kimi, Qazax rayonunun sakinləri və bu bölgənin keşiyini çəkən Vətən müdafiəçiləri də böyük ruh yüksəkliyi ilə qarşılayıblar. Hazırda bütün təhsil ocaqlarında, hərbi kollektivlərdə, mədəniyyət müəssisələrində bu münasibət ilə silsilə tədbirlər hazırlanaraq həyata keçirilir. Bütün bunlar hamısı ölkə rəhbərliyinin tariximizə olan sonsuz sevgi və məhəbbətinin təcəssümüdür. Həqiqətən də, Azərbaycan xalqının tarix boyu nümayiş etdirdiyi qəhrəmanlıq, cəsurluq ənənələri müstəqilliyini yenidən bərpa etmiş respublikamızda daha da canlanır. 2016-cı ilin aprelində Ali Baş Komandanımızın rəhbərliyi altında qazandığımız qələbə əcdadlarımızın qəhrəmanlıq ənənələrinin davamıdır".

İcra başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin həmişə tariximizə, xüsusilə hərb tariximizə böyük önəm verdiyini qeyd edərək Ulu Öndərin bu kəlamlarını tədbir iştirakçılarına xatırladır: "Azərbaycan Respublikasının öz torpaqlarını müdafiə etmək üçün böyük potensialı var. Ən böyük potensial bizim insanların Vətənə, torpağa bağlılığı, Vətəni, torpağı sevməsi və onu qorumaq hissidir. Bu, xalqımızın tarixi ənənələrindən irəli gələn hissdir. Güman edirəm ki, xalqımız tarixi ənənələrimizi, keçmişimizi yada salaraq Azərbaycanın bu ağır vəziyyətdən çıxması üçün bundan sonra səmərəli tədbirlər görəcəkdir".

Artıq dahi rəhbərimizin arzuları, gümanları uğurla həyata keçir, xalqımız öz gələcəyini tarixdən ibrət götürərək, milli-mənəvi dəyərlərimizə söykənərək qurur və daha işıqlı, daha nurlu sabahlara doğru inamla irəliləyir.

Layihənin müəllifi, Əməkdar İncəsənət Xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani hərbçi Şıxlinski qardaşları haqqında ətraflı məlumat verib. Onların general-leytenant Əlağa Şıxlinskinin qardaşı oğulları, Hüseyn əfəndi Qayıbovun isə nəvələri olduqlarını nəzərə çatdırıb.

Vurğulanıb ki, hər iki qardaş Qazaxlı kəndində, Məmməd ağa Şıxlinskinin ailəsində dünyaya gəlib, Tiflisdə zadəganlar üçün Kadet korpusunda, sonra isə Peterburqda Mixaylov Topçuluq Məktəbində oxuyublar. Bu qardaşlar bir müddət çar ordusunda xidmət etmiş, Birinci Dünya müharibəsi illərində Tatar alayının tərkibində vuruşmuş, dövrün ən yüksək döyüş ordenlərinə layiq görülmüşlər.

Şıxlinski qardaşlarının 1918-ci ildə yenicə yaradılan Milli Ordunun təşkilində müstəsna xidmətləri olub. Cavad bəy Azərbaycan Ordusunda "general-mayor" ali hərbi rütbəsinə, Rüstəm bəy isə "polkovnik" rütbəsinə yüksəliblər. Onlar Bakının daşnaklardan təmizlənməsində, işğalçılardan azad edilməsində, Qarabağda, Zəngəzurda əsl qəhrəmanlıq nümunələri göstəriblər.

Bolşeviklər Azərbaycanı işğal etdikdən sonra Şıxlinski qardaşları yenə də silahlarını yerə qoymamış və Vətən uğrunda cihada qalxmışlar.

1920-ci ilin mayın sonlarında baş vermiş Gəncə üsyanının təşkilatlanmasında, bolşeviklərə qarşı müqavimət göstərilməsində Şıxlinski qardaşlarının xidmətləri əvəzedilməzdir.

Gəncə üsyanı məğlubiyyətlə başa çatsa da, bu, tariximizdə bolşevizmə, istibdada, köləliyə, müstəmləkəyə qarşı ən böyük azadlıq mücadiləsi, etiraz duruşudur. Bu üsyan zamanı neçə-neçə görkəmli hərbi xadimlərlə birlikdə Rüstəm bəy də Nargin adasına aparılaraq güllələnmiş, qardaşı Cavad bəy isə yaralı vəziyyətdə döyüş meydanından çıxarılaraq əvvəl Qazaxa, oradan isə Qarayazı meşəsi ilə Gürcüstana keçirilmiş, sonra isə Türkiyə və İrana aparılmışdır. Sonrakı həyatı mühacirətdə keçən Cavad bəy İranda da peşəkar hərbçi kimi xidmətini davam etdirmiş, hətta Ərdəbilin hərbi komandanı təyin olunmuş, bir müddət İran şahının hərbi müşaviri kimi fəaliyyət göstərmişdir. 1959-cu ildə Tehranda vəfat edən Cavad bəyin təyyarəçi və mühəndis olan iki oğlunun, həkim qızının və nəvə-nəticələrinin axtarışı tərəfimizdən davam etdirilir.

Pedaqoji elmlər namizədi, dosent Arif Veysov Azərbaycan Prezidentinin müvafiq sərəncamlarının siyasi və tarixi əhəmiyyətindən danışıb və bu sərəncamların icrası ilə əlaqədar keçirilən tədbirlərin gənclərin hərbi vətənpərvərlik, ata-babalarının qəhrəmanlıq ənənələri ruhunda tərbiyə edilməsində mühüm əhəmiyyət kəsb etdiyini bildirmişdir.

Rüstəm bəyin nəvələri Rüstəm və Fuad Şıxlinskilər dayıları haqqında analarından eşitdikləri xatirələri yada salıb və bu tədbirin yüksək səviyyədə təşkilinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, Müdafiə Nazirliyinin və Qazax rayon İcra Hakimiyyətinin rəhbərliyinə minnətdarlıq ediblər.

Tədbirin sonunda Cavad bəy və Rüstəm bəy Şıxlinski qardaşlarının vaxtilə yaşadıqları evə baxış olub və Azərbaycan Ordusunun 100 illik yubileyi ərəfəsində həmin evə xatirə lövhəsinin vurulması qərara alınıb.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**




Ön xətdə yerləşən "N" hərbi hissəsində zabit Eldəniz İsmayılovla birgə səngərə çatırıq. Şəxsi heyətə təlimat verən bölük komandiri leytenant Elşən Cəfərliyə yaxınlaşıram. Zabit bildirdi ki, hər bir şəxs seçdiyi peşəsini sevməli və ona böyük hörmətlə yanaşmalıdır. "Mən hər zaman hərbçi olmaq arzusunda olmuşam. Çünki bu forma xüsusi hörmətə layiqdir. Bu formada Mübarizlərimiz, Çingizlərimiz, Fəridlərimiz, Raquflarımız... Vətən uğrunda ən uca zirvəyə - şəhidlik zirvəsinə ucalıblar. Bu hər bir azərbaycanlı üçün böyük şərəfdir. Onlar hamısı bizlərə örnəkdir. Necə deyərlər, "Şəhidlər ölməz, Vətən bölünməz". Həqiqətən, şəhidlərimiz Azərbaycan xalqı üçün həmişə yaşayıb, yaşayır və hər zaman yaşayacaqdır. Biz hamımız fəxr edirik ki, Vətənimiz belə oğullar yetişdirir. Tez bir müddət ərzində onların qanlarını yerdə qoymayacağıq, torpaqlarımızı işğaldan azad edərək, o gözəl diyarlarımıza yenidən qayıdacağıq. Bunun üçün Ali Baş Komandan İlham Əliyevin döyüş əmrini gözləyirik".

Zabit E.Cəfərlinin dediyi kimi, müstəqilliyimiz, ərazi bütövlüyümüz uğrunda canından keçən hər bir şəxsin xatirəsi böyük hörmət və rəğbətlə anılır. Çünki onlar bizlər üçün, torpağımız üçün şəhid olublar. Onların ruhları qarşısında baş əymək hər bir Azərbaycan vətəndaşının mənəvi borcudur.

Salyan rayonundan ordu sıralarına çağırılan əsgər Elbrus Quliyev söhbətimizdə bildirdi ki, "əsgərlik kişilik məktəbidir" fikri ilə tam razıdır: "Çünki hərbi xidmət məndə müsbət keyfiyyətlər aşıladı. O keyfiyyətləri ki, mənə mülki həyatda da lazım olacaq. Xidməti dövrümün çox hissəsini geridə qoymuşam. Bir aydan sonra ordu sıralarından ehtiyata buraxılacam. Mənim üçün şərəfdir ki, xidmətimi düzgün təşkil edib ailəmin yanına başıuca, alnıaçıq qayıdacam. Mən hər zaman Vətənimin əsgəriyəm". Söhbətimizin sonunda E.Quliyev gənc əsgərlərə arzuladı ki, hər zaman xidmətləri ilə seçilsinlər: "Döyüş növbətçisi çıxanda qorxmasınlar, əksinə, nifrətləri daha da artsın. Silahdaşlarını özlərinə dost, qardaş bilsinlər. Çünki bura bir ailədir. Etiraf edim ki, mən artıq indidən gedəcəyimi təsəvvür edəndə kədərlənirəm. Onlara arzu edirəm ki, Böyük Qələbəni xalqımıza yaşatsınlar".

"Xidməti dövrümün ən yaddaqalan günü döyüş növbətçisi çıxdığım gün oldu", - deyə əsgər Anar Zeynalov bildirdi. - Silahlanaraq bölüyümüzün baş çavuşu tərəfindən təlimatlandırıldım. Daha sonra isə bölüyümüzün müdafiəsi üçün təyin olunmuş yerdə xidmətimi təşkil etdim. Anlayırdım ki, mənə çox məsuliyyətli bir iş tapşırılıb. Çünki hər kəs istirahət edir, yalnız sən oyaqsan və hamı sənə güvənərək rahatlıqla yatır. Qarşımızda isə hər an hiyləgərlik etməyə hazır olan erməni faşistləri dayanıb. Həmin erməni ki, Qarabağda qoca, qadın, körpə demədən hər kəsi güllə atəşinə tutdu, hər kəsi öz evlərindən didərgin saldı. Ermənilərin etdikləri, əlbəttə ki, qisassız qalmayacaqdır. Qisas günümüzə isə çox az qalıbdır.

Əsgər Dövlət Kərimov isə dostluqdan söz açdı. "Dostu qazanmaq asandır, qorumaq çətin. Atalar sözündə deyildiyi kimi: "Ağac kökləri ilə, insan dostları ilə var olar". Bizim yaxşı və etibarlı dostlarımız nə qədər çox olarsa, köklərimiz də torpaqda o qədər möhkəm olar. Çətinliklərdə bərkiyən dostluq isə uzunömürlü olar. Mən də səngərdə çoxlu dost qazanmışam. Onlardan biri də əsgər Nahid Mehdiyevdir. Dost qazanmaq böyük xoşbəxtlikdir. Yaxşı dostun sayəsində üzləşdiyin problemləri daha asanlıqla dəf edərsən. Əsgərlik dostluğu daha həssasdır. Hətta döyüş növbətçiliyinə də dostum əsgər N.Mehdiyevlə bir yerdə çıxmışdıq. İnanıram ki, mülki həyatda belə bizim dostluğumuz davam edəcəkdir".

Həqiqi dostluq illərin sınağından çıxır. Əsl dostluq insanlar arasında münasibətlərin uca zirvəsidir. Dostluğu hər bir çətinliyə dözmək, yalan danışmamaq, sirrini paylaşmaq və dürüst olmaq daha da gücləndirir. Bizim əsgərlərimizin dostluğu əbədi olacaqdır.

Əsgərlər Bəşir Ələkbərov, Kamran Qasımov, Xəyyam Kərimov, Nahid Mehdiyev və başqaları da ön xətdə Vətənimizi, xalqımızı qoruduqları üçün fəxr etdiklərini, lazım gələrsə torpaqlarımızın azadlığı uğrunda canlarından keçməyə hazır olduqlarını bildirdilər. Belə mərd oğullarımızla tanış olduğumuz üçün çox sevincliyik, hər dəfə olduğu kimi, bu dəfə də səngərimizi könül xoşluğu ilə tərk edirik.

**Leytenant
Orxan HÜSEYNLİ,
"Azərbaycan Ordusu",
foto
Coşqun CƏFƏROVUNDUR**

*“Heydər Əliyev irsini öyrənirik”*

# Müasir Azərbaycan Ordusunun qurucusu

*Müdrik uzaqgörən dövlət xadimləri hər zaman ölkəsinin, millətinin və xalqının xilaskarı olub. Heydər Əliyev də xalqının, millətinin tarixinə Azərbaycan dövlətinin qurucusu və banisi kimi daxil olub.*

70-ci illərdən Azərbaycana rəhbərlik edən Ulu Öndərimizin uzaqgörən siyasəti sayəsində ölkəmiz intibah dövrünü yaşamaqdadır.

1971-ci ildə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü və uzaqgörənliyi sayəsində Cəmşid Naxçıvanski adına hərbi təmayüllü məktəb yaradıldı.

C.Naxçıvanski adına Hərbi Liseyin yarandığı gündən bu günədək Azərbaycan Ordusuna yüksək ixtisaslı milli zabit kadrların hazırlanmasında əvəzsiz xidmətləri var.

Hərbi liseyin məzunları arasında Vətən torpaqları uğrunda canlarından keçmiş Azərbaycanın Milli qəhrəmanları adına layiq görülənlər, ali rütbələrə qədər yüksələnlər çoxdur. Bugünkü məzunların sıralarında Azərbaycan Ordusunun generalları yetişir. Əldə etdiyimiz bu nailiyyətlər Ümummilli Liderimizin xalqımıza bəxş etdiyi əvəzsiz töhfələridir.

Ulu öndər Heydər Əliyev qüdrətli, müstəqil Azərbaycanın yaradıcısı və memarıdır. Müstəqil Azərbaycan Ulu Öndərin şah əsəridir. Bu gün qətiyyətlə deyə bilərik ki, ölkəmizin müstəqilliyini qorumağa qadir olan güclü ordumuz, qüdrətli dövlətimiz var.

Ulu Öndər çətin bir məsuliyyəti öz üzərinə götürdü, yeni bir tarix yazdı, Azərbaycanın əbədi müstəqilliyini təmin etdi.

Ulu öndər Heydər Əliyev vətənpərvərlik hisslərinin aşılanması və gələcək nəslin vətənpərvər ruhda tərbiyə olunması üçün çox böyük işlər görüb. O çıxışlarında bildirirdi ki, hər bir Azərbaycan gənci, vətəndaşı tutduğu yerindən və mövqeyindən asılı olmayaraq Vətənin birliyinə, bölünməzliyinə və bütövlüyünün qorunmasına çalışmalıdır. Körpələrimiz də bu ruhda tərbiyə edilməlidir ki, böyüyəndə əsl vətənpərvər, Vətənə sadiq vətəndaş olsunlar. Çünki bütün dövrlərdə Azərbaycanın uğurlu gələcəyini gənc nəsil təmin edəcək.



Bütün çətin anlarda, ağır sınaqlarda xalqımızın digər təbəqələri kimi, ordumuz da Ulu Öndərin arzu, məqsəd və ideyalarının həyata keçməsi üçün var qüvvəsini əsirgəməmişdir. Elə buna görə də biz bu gün böyük cəsarət və qürur hissi ilə deyə bilərik ki, Azərbaycanda ordu quruculuğu birbaşa ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyevin uzaqgörənliyi Azərbaycana uğur gətirdi. Onun ideyalarını yorulmadan həyata keçirən xalqımız sabaha böyük inamla baxır. Bu gün Azərbaycan etibarlı əllərdədir. Əgər Azərbaycan etibarlı əllərdədirsə, Heydər Əliyev yaşayır.

Müstəqil Azərbaycan Heydər Əliyevin tərcümeyi-halıdır.

O, Azərbaycan həqiqətlərini bütün dünyaya bəyan etdi. Azərbaycanın Ümummilli Lideri tariximizə böyük xilaskar kimi daxil oldu.

Heydər Əliyev adı görkəmli dövlət xadimi, insanların qəlbində öz yerini tutan Azərbaycanın qurucusu kimi tarixə yazıldı.

Bu gün Azərbaycanda bütün sahələr çox sürətlə inkişaf edir. Bu inkişafın təməlində Heydər Əliyev siyasəti durur.

Heydər Əliyevin mənalı ömür yolunun, nəsillərə nümunə olan fəaliyyətinin, zəngin siyasi irsinin öyrənilməsi, təbliği, araşdırılması və ondan daima bəhrələnmək bu günün və sabahın qarşıya qoyduğu mühüm vəzifələrdən biridir.

**Mətanət İMAMQULİYEVA,
C.Naxçıvanski adına
Hərbi Lisey**



## Hərbi Akademiyada intensiv ingilis dili kursunun növbəti buraxılışı olub

Silahlı Qüvvələrin Hərbi Akademiyasının intensiv ingilis dili kursunun növbəti buraxılışı keçirilib.

Mərasimdə ümummilli lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Hərbi Akademiyanın rəisi general-leytenant Heydər Piriyev çıxış edərək məzunları təbrik edib və onlara gələcək xidməti fəaliyyətlərində uğurlar arzulayıb.

Sonda kursu bitirənlərə diplom və sertifikatlar təqdim olunub, məzunlarla xatirə şəkli çəkdirilib.

## Hərbi hissədə Cümhuriyyətin 100 illiyi qeyd olunub

*Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibəti ilə tədbir keçirilib.*

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Hərbi hissənin zabiti mayor Elçin Kərəmov tədbir iştirakçılarına Azərbaycan Xalq Cümhuriyyəti barədə geniş məlumat verib. O, bu yubileyin soydaşlarımız tərəfindən böyük hörmət və ehtiramla keçirildiyini xüsusi qeyd edib.



Tədbir Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin konsert proqramı ilə sona çatıb.

## Dövlət sərhədində mühəndis işlərinə dair Yerevanın bəyanatı məsuliyyətsiz və əsassızdır

"Ermənistan Müdafiə Nazirliyinin nümayəndəsinin Azərbaycan-Ermənistan sərhədinin bəzi hissələrində Azərbaycan Ordusunun öz mövqelərini yaxşılaşdırmaq üçün guya aktiv mühəndis işləri aparması barədə məsuliyyətsiz və əsassız bəyanatı ilk növbədə Ermənistan silahlı qüvvələrinin Azərbaycan hərbçisinin öldürülməsi ilə nəticələnən təxribatına bəraət qazandırmaq və ört-basdır etmək məqsədi güdür".

AZƏRTAC xəbər verir ki, bu barədə "RİA Novosti"yə Azərbaycan Müdafiə Nazirliyindən bildirilib.

"Azərbaycan-Ermənistan sərhədinin Naxçıvan hissəsində vəziyyət son vaxtlar sabit qalmaqda davam edirdi, lakin Ermənistanın müdafiə və xarici işlər nazirləri oraya baş çəkdikdən sonra Ermənistan silahlı qüvvələri təxribat həyata keçirməyə başlayıblar", - deyə açıqlamada bildirilir.

## “İnsan hüquqları” aylığı çərçivəsində Azərbaycan Ordusunda bir sıra tədbirlər keçirilir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə ölkəmizdə hər il qeyd olunan 18 iyun - İnsan Hüquqları Günü münasibətilə "İnsan hüquqları" aylığı keçirilir.

Bu aylıq çərçivəsində Azərbaycan Ordusunun birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı hərbi təhsil müəssisələrində insan hüquqlarının və azadlıqlarının mahiyyətindən, onların pozulmasının qarşısının alınması yollarından bəhs edən mövzularda konfranslar, "dəyirmi masa"lar, kitab sərgisi, müsabiqələr, xüsusi dərslər, əhali ilə görüşlər, maarifləndirici seminarlar və digər tədbirlər keçiriləcək.

Bu tədbirlərdə iştirakçıları maraqlandıran suallar mütəxəssislər, ekspertlər, hüquqşünaslar və s. tərəfindən cavablandırılacaq.

Vətənpərvərlik

# Bayrağım - varlığım, bəxtiyarlığım

Ümummilli lider Heydər ƏLİYEV:

*Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizə yaxşı bələd olmalı, dilimizi yaxşı bilməlidir. Hər bir gənc vətənpərvər olmalıdır, vətənpərvərlik böyük məfhumdur.*





*Bayraq dövlətin varlığını təsdiqləyən atributdur, hər bir vətəndaşın mənəvi dünyası dövlət bayrağıyla bağlıdır. Bu gün əzəmətlə dalğalanan üçrəngli bayrağımız qürur və varlığımızın təcəssümüdür. Bayrağımız dalğalanırsa, biz də varıq.*

"İnnovativ Təşəbbüslər" İctimai Birliyinin təşəbbüsü, Müdafiə və Təhsil nazirliklərinin dəstəyi ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş silsilə tədbirlər çərçivəsində "Bayrağa sədaqət andı"nın təbliği məqsədilə növbəti tədbir ön xətdə - "N" hərbi hissəsində keçirildi.

Tədbirdən əvvəl Lələtəpə şəhidlərinin şərəfinə ucaldılan abidənin önünə gül dəstələri qoyuldu. Tədbir iştirakçıları Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə Cocuq Mərcanlıda aparılan quruculuq işləri ilə tanış oldu, Şuşa məscidinin bənzəri olan məscidi ziyarət etdilər.

Tədbirdə Müdafiə və Təhsil nazirliklərinin, Füzuli Dövlət dram teatrının nümayəndələri, Bakı şəhərinin bir neçə məktəbinin müəllimləri, şagirdləri və valideynləri iştirak edirdilər.

Polkovnik Eldəniz İmaməliyev bildirdi ki, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan 1994-cü ilin yanvarında ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun uğurlu Horadiz əməliyyatı zamanı azad edilib. "Lakin ətraf yüksəkliklərdə düşmən qüvvələrinin mövqe tutması kəndin ərazisini faktiki olaraq təhlükə altında saxlayırdı. 2016-cı ilin aprelində Azərbaycan Ordusunun əks-həmləsi ilə Lələtəpə yüksəkliyi azad edildi. Ermənistan ordusunun Lələtəpə ətrafındakı mövqelərimizə yaratdığı təhlükə aradan qaldırıldı".

Polkovnik Eldəniz İmaməliyev qeyd etdi ki, işğaldan azad edilmiş yüksəkliklərdən düşmən mövqelərini tam nəzarət altında saxlamaq mümkündür. "Təxribat imkanları vaxtında aşkarlanaraq zərərsizləşdirilir. Aprel döyüşlərinin nəticələri və Azərbaycan Ordusunun qüdrəti insanların öz doğma yurdlarına qayıdıb əmin-amanlıq şəraitində yaşamalarına stimul yaratdı. Ali Baş Komandanın "Lələtəpə əməliyyatı bizim qəhrəmanlıq rəmzimizdir. Lələtəpə tarixə düşdü. Əgər erməni silahlı qüvvələri aprel döyüşlərindən düzgün nəticə çıxarmasalar, gələcəkdə Lələtəpə əməliyyatı kimi bir çox uğurlu əməliyyatlar olacaqdır" kəlamları tezliklə Böyük Qayıdışın davamının olacağına inamı artırıb. Lələtəpədə, Bayraqtəpədə dalğalanan bayrağımızı Ali Baş Komandanın əmri ilə işğal altında olan torpaqlarımıza sancacağımız günün intizarındayıq."

Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin dövlət qulluqçusu Zümrüd Səmədova vurğuladı ki, bayraq elə bir qüdrətdir ki, hamı ona baş əyir. Bayraq elə bir cəsarətdir ki, əliyalın 20 Yanvar şəhidlərimizi bir an belə tərəddüd etmədən xalqın azadlıq arzusunu boğmaq istəyən zirehli tankların altına apardı. “Bayraq elə bir şərəfdir ki, xalqların ən böyük şərəfə layiq gördüyü insanlar onun qarşısında diz çöküb öz xalqına sədaqət andı içir. Bayraq elə bir müqəddəslikdir ki, onun altında ölmək belə şərəflidir. Aprel döyüşlərində Lələtəpəyə, Bayraqtəpəyə sancılan üçrəngli bayrağımız illərdən bəri ürəklərimizdəki həsrəti dindirdi, arzularımızın çin olacağına inamımızı gücləndirdi. İnanırıq ki, çox yaxında üçrəngli bayrağımız Qarabağda dalğalanacaq!".

Zümrüd Səmədova əsgərlər qarşısında keçirdiyi izahıolunmaz hisslərdən danışdı, oğlunun aprel döyüşlərinin iştirakçısı olmasıyla qürurlandı.

"İnnovativ Təşəbbüslər" İctimai Birliyinin sədri Əşrəf Əhmədov torpaqlarımızın keşiyində dayanan əsgərlərimizlə qürur duyduğunu bildirdi, layihə haqqında geniş məlumat verərək 70 mindən artıq şagirdimizin "Bayrağa sədaqət andı" içdiyini qeyd etdi. "Gənclərimizin içdiyi "Bayrağa sədaqət andı" irəlidə hərbi andla birləşərək daxillərindəki vətənpərvərlik hisslərini daha da gücləndirəcək. Üçrəngli bayrağımızı yüksəklərdə dalğalandırmaq hər birimizin müqəddəs borcudur. Ali Baş Komandanımızın dediyi: "Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Laçında, Kəlbəcərdə, Xankəndidə, Şuşada dalğalanacaqdır", - sözləri hər birimizin yaşam amalına çevrilməlidir".

Şagirdlər əsgərlər qarşısında "Bayrağa sədaqət andı" içərək Vətənimizin tarixi torpaqlarında mübarizlik əzmi ilə dalğalanan üçrəngli bayrağımızı hər zaman uca tutacaqlarına, yüksəklərdə dalğalandıracaqlarına söz verdilər.

Mərasimdə Azərbaycan Respublikasının Dövlət bayrağı "İnnovativ Təşəbbüslər" İctimai Birliyinin sədri Əşrəf Əhmədov tərəfindən aprel döyüşçüsü baş leytenant Abbas Səfərova təqdim olundu. Baş leytenant öpüb gözləri üstünə qoyduğu üçrəngli bayrağımızı Ali Baş Komandanın əmri ilə Qarabağda dalğalandıracağına söz verdi.

Hüseynağa Qasımov dövlətimizin günü-gündən inkişaf etməsindən, ordumuzun dünyanın inkişaf etmiş ölkələrinin orduları sırasında olmasından danışaraq bildirdi ki, hər bir vətəndaşımız hərbi hissələrimizdəki şəraitdən xəbərdardır və ordu haqqında fəxrlə danışaraq qeyd edirlər ki, "Son illər orduda keçirilən "Açıq qapı" gününü xalq çox bəyənir. Gənclərimiz Vətənə sevgi, dövlət atributlarına ehtiramla formalaşırlar".

Müharibə veteranı, I dərəcəli kapitan Akif Qasımov, Səfurə Rəhimova, Məhlubə Əzizova, Elvin Səlimov, Könül Məmmədli, Aynur Abdullayeva və Fatma Qəfərova ordumuzun regionda ən güclü ordu olması ilə qürur duyduqlarından, ordumuza sonsuz inamlarından söz açdılar. Qeyd etdilər ki, müstəqil dövlətlərin rəmzi, ideya daşıyıcısı olan bayraq milləti, xalqı öz kölgəsinə toplayır. “Üçrəngli bayrağımız xalqımızın tarixi keçmişi, bu günü, gələcəyidir. Bayraq Vətən uğrunda canlarından keçən şəhidlərin xatirəsini yaşadır”.



Çıxış edənlər "Bayrağa sədaqət andı"nın sadəcə şagirdlərdə deyil, böyüklərdə də bayrağımıza hörmət və məhəbbət hissi formalaşdırmasından, vətəndaşlıq duyğusunu, milli qürur hissini gücləndirməsindən danışdılar.

Şagirdlərdən Əntiqə Əliyevanın, Məhəmməd Qənbərovun, Səid Əhmədovun, Emin Babayevin, Mədinəxanım Ələsgərlinin, Əli Hacıyevin və başqalarının bayraq haqqında maraqlı fikirləri, dedikləri şeirlər, ifa etdikləri milli rəqslər tədbir iştirakçılarına könül xoşluğu yaşatdı.

Sonda Füzuli Dövlət dram teatrının nümayəndələri maraqlı tamaşa təqdim etdilər.

**Leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Müstəqillik tariximizin mühüm mərhələsi - 15 İyun Milli Qurtuluş Günüdür.

**Suallar:**
**1. Müstəqillik tariximizin mühüm mərhələsi.**
**2. 15 İyun Milli Qurtuluş Günüdür.**

*Müstəqillik tariximizin mühüm mərhələsi*

Azərbaycanda milli azadlıq hərəkatı hələ Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra bərqərar olmuş sovet rejiminin ilk günlərindən başlamışdı. 1923-cü ildə "Müsavat" partiyası gizli şəkildə "İstiqlal" vərəqəsi nəşr etdirmiş və onun səhifələrində verilmiş bəyannamədə yazılmışdı: "Ey türk (Azərbaycan) xalqı! Səni azad edəcək və xoşbəxt yaşadacaq qanlı mübarizəyə bütün qüvvənlə hazırlaş, səni bu mübarizə xilas edəcəkdir. Azərbaycanın istiqlalını bir dəfə qurdun, ikinci dəfə də qurmaq bacarığına maliksən! Düşmənini tanı, milli intibahını yüksəlt, haqq səninlədir! Yaşasın, Azərbaycan istiqlalı! Yaşasın üçrəngli bayrağımız!".

XX əsrin 60-70-ci illərində Azərbaycanda yayılan dissidentlər hərəkatı da milli müstəqillik ideyalarının yayılmasına xidmət etmişdi. Sosializm ideyalarını iflasdan və SSRİ-ni dağılmaqdan xilas etmək məqsədilə 80-ci illərin ortalarında irəli sürülən "yenidənqurma" siyasəti Azərbaycanda da demokratiya və suverenlik uğrunda mübarizəyə yeni nəfəs verdi. Azərbaycanda da demokratiya və suverenlik uğrunda kütləvi hərəkat başladı.

Demokratiya və aşkarlıq şəraitindən məharətlə istifadə edən ermənilərin Azərbaycanın əzəli torpaqları hesabına "Böyük Ermənistan" yaratmaq iştahaları yenidən artdı. İlk növbədə azərbaycanlılar kütləvi olaraq Qərbi Azərbaycandakı doğma torpaqlarından qovuldular. Qısa müddət ərzində 230 mindən çox azərbaycanlı deportasiyaya məruz qaldı. 1988-ci il fevralın 21-də Azərbaycanın əzəli tərkib hissəsi olan Dağlıq Qarabağın Ermənistanın tərkibinə keçməsi barədə qərar qəbul edildi. Azərbaycanın tərkib hissəsi olan Dağlıq Qarabağdan da azərbaycanlıların təmizlənməsinə başlanıldı. Bununla onlar antiazərbaycan, antitürk ictimai fikrin formalaşmasına nail oldular. Bütün bunlar Azərbaycanda suverenlik və ərazi bütövlüyü uğrunda kütləvi xalq hərəkatının başlanmasına səbəb oldu. 1988-ci il fevralın 19-da Bakıda ilk etiraz mitinqi keçirildi. Kütlələrin etiraz mitinqlərindən ən əzəmətlisi 1988-ci il noyabrın 17-də Bakının Azadlıq meydanında olmuşdu. Bu mitinqdə yarım milyondan çox adam iştirak etmişdi. Bu, Azərbaycanın müasir tarixinə Milli Dirçəliş hadisəsi kimi daxil olmuşdur. O, Azərbaycan xalqının milli yaddaşının dirçəlməsində suverenlik və azadlıq uğrunda mübarizənin meydan mərhələsində mühüm rol oynamışdı.

Azərbaycanda milli-azadlıq hərəkatını boğmaq üçün 1990-cı il yanvarın 19-dan 20-ə keçən gecə xüsusi təyinatlı hissələrdən ibarət "şanlı" Sovet ordusu Bakı üzərinə hücuma keçdi. Şəhərdə qanlı qırğın törədildi. Bakıda və digər rayonlarda dinc vətəndaşlar qətlə yetirildi. Bu faciədən xəbər tutan Heydər Əliyev ertəsi günü Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək imperiyanın Bakıda qanlı qırğın törətdiyini dünyaya bəyan etdi, onu "təcavüz və xəyanət" kimi qiymətləndirdi.

Moskvada 1991-ci il 19-21 avqust hadisələrindən sonra Azərbaycanda da ictimai-siyasi vəziyyət daha da kəskinləşdi. Suverenlik, müstəqillik və azadlıq uğrunda mübarizə əməli vəzifəyə çevrildi. Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il avqustun 30-da çağırılmış növbədənkənar sessiyası "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Bəyannamə" qəbul etdi.

Ermənilər Dağlıq Qarabağdakı Rusiya ordu hissələrinin köməyi ilə Azərbaycanın ətraf yaşayış məntəqələrini işğal edirdilər. Hakimiyyət isə ciddi tədbirlər görmək iqtidarında deyildi. Belə bir şəraitdə xalqın tələbi ilə Ali Sovetin sessiyası 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nı qəbul etdi. Beləliklə, Azərbaycan Respublikasının müstəqilliyi rəsmən bərpa olundu. Həmin gün tariximizə "Azərbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsi günü" kimi daxil olmuşdur.

Müstəqilliyimizin ilk illərində ictimai-siyasi vəziyyət gərgin olmaqda qalırdı. Ermənistanın Azərbaycanın ərazi bütövlüyünə qəsdləri davam edir, iqtidar-müxalifət qarşıdurması kəskinləşir, iqtisadiyyat isə tənəzzül edirdi. Bunlar da siyasi duruma çox mənfi təsir göstərmişdi və respublikada vəziyyət vətəndaş müharibəsi həddinə çatdırılmışdı. Belə şəraitdə xalqını, Vətənini sevən ziyalıların nəzəri 1990-cı ilin iyulunda Moskvadan Azərbaycana gələrək Naxçıvanda məskunlaşan və xalqın təkidi ilə 1991-ci il sentyabrın 3-də Naxçıvan MR Ali Məclisinin sədri seçilən təcrübəli siyasətçi Heydər Əliyevə çevrilmişdi. Onlar çıxış yolunu Heydər Əliyevin respublika rəhbərliyinə gəlməsində görürdülər. 1992-ci il oktyabrın 16-da ziyalılardan ibarət 91 nəfərin "Səs" qəzetində Heydər Əliyevə yenidən böyük siyasətə qayıtması xahişi ilə müraciəti dərc edildi. 1992-ci il noyabrın 21-də Naxçıvanda Heydər Əliyevin sədrliyi ilə Yeni Azərbaycan Partiyası (YAP) yaradıldı.

*15 İyun Milli Qurtuluş Günüdür*

Azərbaycan müstəqillik əldə etsə də, Ermənistanın işğalçılıq niyyəti güdən təcavüzü respublikada vəziyyəti gərginləşdirmişdi. İctimai həyatın bütün sahələrində hərc-mərclik baş alıb gedirdi. Azərbaycanda hakimiyyət boşluğu yaranmışdı. Gənc respublikada rəhbərliyə yiyələnmək üçün ayrı-ayrı şəxslər və qruplar arasında mübarizə gedirdi. 1993-cü il iyunun 4-də Gəncədə Surət Hüseynovun nəzarəti altında olan hərbi hissənin hakimiyyətə itaətsizliyi ölkəni tamamilə xaosa sürükləmişdi. Situasiyanı nəzarətə almaq üçün hakimiyyətin atdığı tələsik addımlar vəziyyəti düzəltmək əvəzinə, Gəncəyə yola düşən dövlət nümayəndələri girov götürülmüşdü. Qiyamçı hərbi hissənin rəhbərliyi Baş nazir və Milli Məclis sədrinin, sonra isə Prezidentin istefasını tələb etmişdi. Vəziyyət nəzarətdən çıxaraq ətraf rayonların icra başçıları zorla dəyişdirilmişdi. Surət Hüseynovun qiyamı məhdud Gəncə civarlarından çıxaraq, üzü Bakıya doğru geniş miqyas almışdı. Belə böhranlı və ağır vəziyyətdə ölkə vətəndaşları yeganə çıxış yolunu yenə də müdrik rəhbərinin hakimiyyət sükanı arxasına keçməsində görmüşdü. Bu taleyüklü sınaq anında xalqın çağırışına səs verən, dövlətin gələcək taleyinə biganə qalmayan böyük strateq Heydər Əliyev Bakıya dönərək respublikada yaranmış hakimiyyət böhranının aradan qaldırılması istiqamətində əməli fəaliyyətə başlamışdı. Ümummilli Liderin bir qrup ziyalı ilə Gəncəyə səfər etməsi və heç bir riskdən çəkinməyərək silahlanmış qüvvələrlə danışıqlar aparması vətəndaş müharibəsi təhlükəsinin qarşısının alınmasında mühüm addım olmuşdur. Bundan bir neçə gün sonra isə Ulu Öndər parlamentdə səslənən təkidli xahişləri, ən əsası xalqın istəyini nəzərə alaraq o zamankı Azərbaycan Respublikası Ali Sovetinin sədri vəzifəsinə seçilməsinə razılıq vermişdir. 1993-cü il iyunun 15-də Heydər Əliyev Ali Sovetin sədri seçildi və həmin gün tariximizə "Milli Qurtuluş Günü" kimi daxil olmuşdur. Bu tarixi hadisə respublika həyatında xaos və anarxiyadan qurtuluşa doğru yeni mərhələnin başlanğıcı oldu.

1993-cü il iyunun 18-də gecə xəbər vermədən Prezident Əbülfəz Elçibəy (Əliyev) paytaxtı tərk edərək respublikanı rəhbərsiz qoyaraq anadan olduğu Ordubad rayonunun Kələki kəndinə getdi. İyunun 23-də Milli Məclis prezident səlahiyyətlərini də Ali Sovetin sədri Heydər Əliyevə həvalə etdi. 1993-cü il oktyabrın 3-də Heydər Əliyev ümumxalq seçkisi ilə Azərbaycan Respublikasının Prezidenti seçildi. Bununla da müstəqilliyimizin Heydər Əliyev mərhələsi başlandı. Bu mərhələnin başlanması ilə respublikada hakimiyyət boşluğu aradan qaldırıldı və baş alıb gedən separatçılıq meyilləri yox edildi.

Heydər Əliyev ordu quruculuğu işini elmi əsaslarla və planlı surətdə həyata keçirməyə başladı. 1993-cü il noyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanı ilə Azərbaycan Respublikasının Müdafiə Şurası yaradıldı. 1993-cü il noyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev radio və televiziya ilə xalqa müraciət etdi. Ümummilli Liderimizin bu tarixi müraciətindən sonrakı dövr ordu quruculuğunda əsas mərhələnin başlanğıcı oldu.

1993-cü il dekabrın 10-da Beyləqan istiqamətində hücuma keçən Ermənistan silahlı qüvvələri son bir neçə ay ərzində ilk dəfə olaraq Azərbaycan Ordusunun hissələrinin güclü müqavimətinə rast gələrək uğursuzluğa düçar oldu. 1993-cü il dekabrın 28-də Ermənistan qoşunlarının Goranboy, Tərtər və Ağdam istiqamətlərində də hücumlarının qarşısı alındı. Bu istiqamətlərdə xeyli canlı qüvvə və texnikası məhv edilən düşmən geri çəkilməyə məcbur oldu. Füzuli-Beyləqan istiqamətində döyüşçülərimiz 40 km-ə qədər irəliləyərək düşməni darmadağın etdilər. Həmin günlərdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Heydər Əliyevin tez-tez ön cəbhəyə getməsi, döyüşən Azərbaycan əsgərləri ilə yanaşı, səngərlərdə olması, onların qayğı və ehtiyacları ilə maraqlanması, döyüşdə fərqlənənləri yerindəcə mükafatlandırması, döyüşçülərin qayğıları ilə yaşaması onlara yeni ruh yüksəkliyi verirdi. Qarabağ bölgəsində gedən döyüşlərdə Azərbaycan Ordusunun əldə etdiyi uğurlar öz müsbət təsirini göstərdi və düşmən 1994-cü il mayın 12-də atəşkəsi imzalamağa məcbur oldu. Bu da ölkədə sabitliyin davam etməsi üçün mühüm şərt idi.

1994-cü ilin sentyabrında dünyanın iri neft şirkətləri ilə Əsrin müqaviləsi adlandırılan ilk neft müqavilələri imzalandı. İndi dünyanın 14 dövlətindən olan 30-dan çox şirkətlə 21 neft müqaviləsi imzalanaraq Azərbaycan iqtisadiyyatına 10 milyard dollar investisiya qoyulmuşdur.

1994-cü ilin oktyabrında, o zaman baş nazir olan Surət Hüseynovun başçılığı ilə dövlət çevrilişi etmək cəhdi xalqın köməyi ilə aradan qaldırıldı. Eyni zamanda Əlikram Hümbətovun "Talış-Muğan" respublikası yaratmaq və 1995-ci ilin martında Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlı Polis dəstələrinə başçılıq edən Rövşən Cavadov və onun qardaşı prokuror Mahir Cavadov tərəfindən zorakı hökumət dəyişikliyi cəhdlərinin qarşısı alındı. Azərbaycanda sabitlik bərqərar olunaraq, dövlətçiliyimizə qarşı qəsdlər ləğv olundu.

Möhkəm sosial-siyasi sabitliyin və qanunçuluğun bərqərar olması müstəqil Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinə imkan verdi. 1995-ci il noyabrın 12-də Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi. Bununla respublikanın inkişaf tarixində - demokratik, hüquqi dövlət qurmaq, ölkənin dinamik inkişafını təmin etmək prosesi başlandı. Konstitusiyaya əsasən, respublikada qanunvericilik, icraedici və məhkəmə hakimiyyəti yaradıldı. Parlament seçkiləri yolu ilə müxtəlif partiyaları təmsil edən 125 deputatdan ibarət Milli Məclis formalaşdırıldı. Milli Məclisin qanunvericilik fəaliyyəti gücləndirilərək dövlət quruculuğu və yeni iqtisadi sistemin müvafiq hüquqi bazasını yaratmağa yönəldilmiş çoxlu qanunlar qəbul edildi.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətinin xarici siyasəti, dünyanın aparıcı dövlətləri ilə əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başladı. Ulu Öndərin xarici siyasətinin əsasını sülh, beynəlxalq hüquq normalarına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsipləri təşkil edib. Ümummilli lider Heydər Əliyev 1992-ci ildən başlayaraq türkdilli dövlətlər arasında iqtisadi, siyasi, ədəbi-mədəni əlaqələrin genişləndirilməsi və möhkəmləndirilməsi sahəsində də gərgin fəaliyyət göstərərək bütün türk dünyasının ən nüfuzlu şəxsiyyəti kimi şöhrət qazanıb.

Tarixin amansız və sərt sınaqları dövründə dünyanın ayrı-ayrı ölkələrinə səpələnərək yaşamaq məcburiyyətində qalmış azərbaycanlıların birlik və həmrəyliyinin əldə edilməsi işində ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri vardır. O, dünya azərbaycanlılarının təşkilatlanması və onların bir Vətən - müstəqil Azərbaycan ətrafında sıx birləşməsi üçün daim və əzmlə səy göstərmiş, bu istiqamətdə son dərəcə qiymətli qərarlar qəbul edib.

Ümummilli lider Heydər Əliyev bizim dahi müasirimiz olaraq hər bir azərbaycanlı üçün qürur mənbəyimiz və taleyin xalqımıza bəxş etdiyi böyük tarixi şəxsiyyətdir. Müstəqil Azərbaycan dövlətinin qurucusu kimi milli dövlətçiliyimizin ideya əsasını məhz Heydər Əliyev yaradıb.

Ümummilli lider Heydər Əliyevin müdrik, uzaqgörən daxili və xarici siyasəti sayəsində Azərbaycan Ordusunun müasir texnika və silahlarla təchiz olunması, zabit kadrları ilə komplektləşdirilməsi, hərbi hissələrin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, hərbi intizamın möhkəmləndirilməsi sahəsində mühüm nailiyyətlər əldə olunmuşdur. Bu gün səmərəli hərbi təhsil sistemi yaradılmış, hərbi kadr və mütəxəssislərin hazırlıq proqramları, hərbi təhsilin pillələri və onları həyata keçirən hərbi tədris müəssisələrinin fəaliyyət istiqamətləri müəyyən edilmişdir.

Bütün mənalı həyatını öz xalqına bəxş etmiş ümummilli lider Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq, əsl dövlət idarəçiliyi məktəbinə çevrilib. Azərbaycanın hələ neçə-neçə nəsli Heydər Əliyevin zəngin siyasi irsindən, ölkəmizin inkişafı və xalqımızın rifahı naminə faydalanacaq.

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

# Ağstafalı şəhid son mənzilə yola salınıb



*Azərbaycan-Ermənistan dövlət sərhədinin Naxçıvan Muxtar Respublikası sahəsində Ermənistanın növbəti təxribatının qarşısını alarkən şəhid olmuş əsgər Adil Əli oğlu Tatarovla mayın 21-də Ağstafa rayonunun Qıraq Kəsəmən kəndində vida mərasimi keçirilib.*

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, şəhidin 19 il öncə dünyaya gəldiyi evin qarşısında keçirilən izdihamlı mərasimdə Müdafiə Nazirliyinin əməkdaşı polkovnik Abdulla Qurbani çıxış edərək, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun və Naxçıvandakı Əlahiddə Ümumqoşun Ordu Komandanlığının başsağlıqlarını şəhidin ailəsinə, doğmalarına və həmyerlilərinə çatdırıb. Qeyd olunub ki, 2017-ci ilin aprelində müddətli həqiqi hərbi xidmətə çağırılan əsgər Adil Əli oğlu xidmət müddətində özünü nümunəvi, bacarıqlı və hərb peşəsini dərindən mənimsəyən, komandirlərin rəğbətini və təşəkkürünü qazanan döyüşçü kimi tanıda bilib. O, dəfələrlə döyüş, fiziki və mənəvi-psixoloji hazırlıqlarda, ictimai işlərdə özünü fəal bir əsgər kimi təsdiqləyib, təşəkkürnamə, fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıb.

A.Qurbani bildirib ki, ermənilərin növbəti təxribatının arxasında bir neçə gün öncə qoşunların bu istiqamətdə qarşıdurma xəttinə səfər edən Ermənistanın yeni təyin olunmuş müdafiə və xarici işlər nazirləri dayanır və təxribatın onların tapşırığı ilə törədilməsi istisna deyil. Azərbaycan əsgəri düşmənin cavabını qısa vaxtda artıqlaması ilə verəcək. Nə qədər ki, gec deyil, düşmən məkrli və hiyləgər niyyətlərindən əl çəkməli və işğal etdiyi əzəli Azərbaycan torpaqlarından rədd olub getməlidir.



Şəhidin ailəsinə dərin hüznlə başsağlığı verən rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev deyib: "Bütün xalqımız kimi, ağstafalılar da Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi başlanan ilk gündən müsəlləh əsgər olaraq Vətənin müdafiəsinə qalxıb və döyüşlərdə bir çox qəhrəmanlıq nümunələri göstəriblər. Ağstafalı döyüşçülərdən 146 nəfər şəhidlik zirvəsinə ucalıb. Adil Tatarov isə Qıraq Kəsəmən kəndinin yeddinci şəhididir".

Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Ağstafa rayon şöbəsinin sədri, şəhid atası Yaqub İsmayılov, Ağsaqqallar Şurasının sədri Firdovsi Heydərli Azərbaycan əsgərinin qüdrətindən söz açıb, bu qisasın yerdə qalmayacağını bildiriblər.

Şəhidin atası Əli Tatarov dörd bacının yeganə qardaşı olan oğlunun Vətən uğrunda şəhidlik zirvəsinə ucalmasından qürur duyduğunu deyib.

Bölgənin müdafiəsində dayanan hərbi qulluqçular adından çıxış edən polkovnik-leytenant Rasim Manafov Adil Tatarov kimi mübariz oğulların intiqamlarının tezliklə alınacağına and içib.

Şəhidin cənazəsi hərbi orkestrin, Gəncə Qarnizonu Zabitlər Evinin səyyar təşviqat dəstəsinin və fəxri qarovulun müşayiəti ilə kənd qəbiristanlığına aparılıb, Dövlət himninin sədaları və yaylım atəşi altında torpağa tapşırılıb.

Şəhidin cənazəsinə bükülən Azərbaycan bayrağı əbədi xatirə kimi atasına verilib.

# Gizir hazırlığı kursunun növbəti məzunlarına sertifikatlar və hərbi rütbələr təqdim edilib

*Mayın 21-də Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində "Gizir hazırlığı kursu"nu müvəffəqiyyətlə bitirən məzunların buraxılış mərasimi keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, mərasimdə çıxış edənlər məzunlara doğma Vətənin müdafiəsində bundan sonra da ayıq-sayıq dayanmağı, verilən tapşırıqları peşəkar hərbçi kimi yerinə yetirməyi arzulayıb və hərbi qulluqçulara xidmətlərində uğurlar diləyiblər.

Kursu müvəffəqiyyətlə bitirən məzunlara sertifikatlar və "gizir" hərbi rütbəsi təqdim edildikdən sonra xatirə şəkli çəkdirilib.

*Hərbi texnikalar, silahlar*

# İdarəolunan artilleriya mərmisi

"Kvitnik-E" 152 mm-lik kalibrli idarəolunan artilleriya mərmisidir. Mərmi artilleriyanın səyyar, stasionar və özüyeriyən sistemlərində istifadə olunmaq üçün təyin olunub. Mövcud mərmi "Proqress" elmi-istehsalat kompleksi və "Toçnost" konstruktor bürosunda, 152 mm-lik "Kvitnik" mərmisinin bazası əsasında hazırlanıb. Modernləşdirilmiş mərmi ictimaiyyətə 2007-ci ilin yanvarında "İDEX-2007" silahlanma sərgisində nümayiş etdirilib. 2012-ci ildə mərmi təlimdə uğurla sınaqdan çıxarılıb. Həmin ilin payızında onun poliqonda praktiki atışları həyata keçirilib.

"Kvitnik-E" lazer tuşlamalı haubitsa mərmisidir,



müasir standartlar əsasında hazırlanıb. Onun döyüş hissəsi mərmi-fuqaslıdır. Verilən məlumata görə, bu silahın keyfiyyəti çox yüksəkdir. Onu da qeyd edirlər ki, bu mərminin 16 döyüş sursatı 800 ədəd adi mərminin işini yerinə yetirməyə qadirdir. Ukraynanın silahlanmasına 2012-ci ildə qəbul edilib. Artilleriya mərmisinin hərəkət uzaqlığı 3 kilometrdən 20 kilometrə qədərdir. Partlayıcı maddəsinin çəkisi 8 kiloqram, mərmisinin çəkisi 48 kiloqram, uzunluğu isə 1200 mm təşkil edir.

Bu mərmi "Msta-S", 2S3M "Akasiya" növlü haubitsaların artilleriya sistemləri və zirehli hədəflərin, nəqliyyat vasitələrinin, buraxıcı raket və özüyeriyən artilleriya qurğularının, hərəkət edən və etməyən, gizli və açıq hədəflər, kəşfiyyat mərkəzlərinin, komanda məntəqələrinin və mühəndis tikililərinin, kompüter və kəşfiyyat mərkəzlərinin, körpülərin və s. vacib obyektlərin məhv edilməsi üçün nəzərdə tutulub. Bu sursatlar artilleriya atəşinin effektliyini daha da artırmağa qadirdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## İstanbulda Qüdsə dəstək mitinqi keçirilib



İstanbulun "Yeni qapı" meydanında Qüdsə dəstək məqsədilə mitinq keçirilib.

Mitinqə ölkənin əksər siyasi partiyaları və ictimai təşkilatları tərəfindən dəstək verilib. İqtisadi Əməkdaşlıq Təşkilatının İstanbulda keçiriləcək fövqəlade Sammitində iştirak edəcək ölkələrin bəzi təmsilçiləri də mitinqə qatılıblar.

Çıxışlarda son günlər Qüdsdə Fələstin xalqına qarşı həyata keçirilən zorakılıq halları pislənilib.

## Kubada təyyarə qəzasında 100-dən çox insan həlak olub



Kubada Cubana de Aviacion aviakompaniyasına məxsus "Boeing-737" sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində 100-dən çox insan həlak olub.

Təyyarənin göyərtəsində olan 110 nəfərdən 104-ü sərnişin, 6-sı ekipaj üzvü olub. Qəza nəticəsində üç nəfər sağ qalıb. Ağır vəziyyətdə olan həmin sərnişinlər xəstəxanaya yerləşdiriliblər.

Təyyarənin qara qutusu hələ tapılmayıb.

Qeyd edək ki, təyyarə Havana aeroportundan havaya qalxdıqdan bir neçə dəqiqə sonra yerə çırpılıb.

## Əfqanıstanda "Taliban"ın hücumu nəticəsində azı 13 hərbçi öldürülüb



Əfqanıstanın cənubunda yerləşən Qəzni vilayətinin Əciristan qəzasında "Taliban" hərəkatının hücumu nəticəsində azı 13 hərbçi öldürülüb, 8 nəfər isə yaralanıb.

İnsident mayın 18-nə keçən gecə baş verib. Talibllər hökumət qüvvələrinin yaşayış məntəqəsində yerləşən nəzarət-buraxılış məntəqələrinə hücum ediblər. Hazırda döyüşlərin davam etdiyi bildirilir. Əfqanıstan ordusunun buraxılış məntəqələri ilə əlaqəsi kəsilib. Bələdiyyə başçısının sözlərinə görə, hökumət qüvvələri kömək göndərməsə, yaşayış məntəqəsi əldən gedə bilər.

Hərəkatın mətbuat katibi Kari Yusif Əhmədi yerli KİV-lərə bildirib ki, artıq bütün nəzarət-buraxılış məntəqələri üzərində nəzarəti ələ keçiriblər. Hökumət qüvvələrinin əlində isə yalnız administrativ mərkəz və polis binası qalıb.

## Cənubi Koreya ABŞ-ın strateji aviasiyası ilə manevrlərində iştirak etməyəcək



Koreya Respublikası KXDR-in kəskin reaksiyasından çəkinərək ABŞ Hərbi Hava Qüvvələrinin strateji aviasiyasının cəlb olunacağı manevrlərində iştirakdan imtina edib.

Bu həftə B-52 strateji bombardmançılarının iştirakı ilə "Blue Lightning" manevrlərinin keçirilməsi planlaşdırılmışdı. Lakin Cənubi Koreya tərəfi bunun KXDR və ABŞ liderlərinin sammiti astanasında koreyalararası münasibətlərə mənfi təsirindən ehtiyatlanaraq, təlimlərdə iştirak etmək istəmədiyini bildirib.

KBS telekanalının məlumatına əsasən, Koreya Respublikasının Milli Müdafiə naziri Son Yon Mu və Koreya yarımadasında ABŞ-ın hərbi kontingentinin komandanı general Visent Bruks arasında mayın 16-da keçirilən görüşdə B-52 bombardmançılarının yalnız Yaponiyanın hava məkanında uçuşlar həyata keçirəcəyi və Cənubi Koreya zonasına keçməyəcəyi barədə razılıq əldə olunub.

**AZƏRTAC-ın materialları əsasında**

# Güləş üzrə 33-cü dünya çempionatında uğurla çıxış edərək 11 medal qazanan MOİK-in idmançıları Vətənə qayıdıblar




Moskvada hərbçilər arasında güləş üzrə 33-cü dünya çempionatında uğurla çıxış edərək, 2-si qızıl olmaqla, 11 medal qazanan Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubunun (MOİK) idmançıları Vətənə qayıdıblar.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev adına Beynəlxalq Hava Limanında hərbçi idmançıları MOİK-in üzvləri, güləşçilərin yaxınları və idmansevərlər gül-çiçək dəstələri ilə qarşılayıblar.

Yarışlarda komandamıza MOİK-in rəisi, Beynəlxalq Hərbi İdman Şurasında (CISM) Azərbaycan nümayəndə heyətinin rəhbəri polkovnik-leytenant Rəşad Quliyev rəhbərlik edib. Azərbaycan çempionatda sərbəst güləş yarışlarında 9, yunan-Roma güləşi üzrə 9, qadın güləşi üzrə isə üç idmançı ilə təmsil olunub. Beynəlxalq dərəcəli idman ustası, Əməkdar məşqçi, hərbçilərin Olimpiya Oyunlarının qızıl medalçısı, hərbçilər arasında keçirilən XXX dünya çempionatının qalibi mayor Nazim Əlicanovun və beynəlxalq dərəcəli idman ustası, hərbçilər arasında keçirilən Avropa və dünya birinciliklərinin dördqat qalibi, hərbçilər arasında II Olimpiya Oyunlarının gümüş mükafatçısı mayor Taleh İsrafilovun yarışlara hazırladıqları hərbçi idmançılarımız Moskvadan böyük uğurla qayıdıblar. Belə ki, MOİK-in komandası hərbçilər arasında güləş üzrə 33-cü dünya çempionatını 11 medalla başa vurub. Medallardan 2-si qızıl, 3-ü gümüş, 6-sı isə bürüncdür.

Qızıl medalları komandamızın aktivinə Ceyla Nağızadə (65 kq) və Həsən Əliyev (77 kq) yazdırıblar. Murad Məmmədov (60 kq), Ülvi Qənizadə (72 kq) və Kənan Əliyev (86 kq) yalnız final görüşündə uduzaraq gümüş medallarla



kifayətlənməli oldular. Bürünc medallara isə Sona Tumarxanova (50 kq), Ağahüseyn Mustafayev (65 kq), Coşqun Əzimov (74 kq), Rafiq Hüseynov (82 kq), İslam Abbasov (87 kq) və Roman Bəkirov (97 kq) layiq görülüblər.

Mötəbər turnirdə iştirak edən 22 komanda arasında yunan-Roma güləşi üzrə üçüncü yerə çıxan MOİK idmançıları çempionatın kubokuna da layiq görülüb.

Komandamızın tərkibində beynəlxalq dərəcəli hakimlər Elman İsmayılov və Sədi Quliyev də yarışlarda iştirak ediblər.

Xatırladaq ki, Moskvada hərbçilər arasında sərbəst və yunan-Roma güləşi üzrə keçirilən 33-cü dünya çempionatında 22 ölkədən 350-dən çox idmançı iştirak edib. Yarış iştirakçılarının yarıdan çoxu Olimpiya Oyunlarının, dünya və Avropa çempionatlarının mükafatçıları olublar.

## "Əsgərə məktub" layihəsi çərçivəsində hərbi hissədə görüş keçirilib

*Gəncə Qarnizonu Zabitlər Evinin "Vətən uğrunda!" səyyar təşviqat dəstəsi "Əsgərə məktub" layihəsi çərçivəsində "N" hərbi hissəsində görüş keçirib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə Gəncə şəhər Paşa Hüseynov adına Futbol Təmayüllü İnternat tipli Gimnaziyanın şagirdləri, onların müəllim və valideynləri iştirak ediblər.

Görüş zamanı Azərbaycan Ordusunun yaranma tarixi, hərbi hissənin keçdiyi şərəfli döyüş yolu haqqında məlumat verilib, şagirdlərin hərbi qulluqçular üçün yazdıqları məktublar oxunub. Məktəblilər hərbi vətənpərvərlik mövzusunda şeirlər söyləyib və mahnılar ifa ediblər.

Əsgərlər onlara ünvanlanan məktublara cavab yazdıqdan sonra xatirə şəkli çəkdirilib.



## "Ermənistan ordusunun keçirdiyi təlimlərdə taktiki və ordu aviasiyasından istifadə ilə bağlı xəbərlər şişirdilib"

Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində keçirdiyi təlimlər zamanı guya taktiki və ordu aviasiyasından istifadə edilməsi ilə bağlı Ermənistan mətbuatının yaydığı xəbər şişirdilib və daxili auditoriyaya hesablanıb.

Bu barədə Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən AZƏRTAC-ın sorğusuna cavab olaraq bildiriblər.

Nazirliyin açıqlamasında qeyd olunub ki, təlimlər zamanı Ermənistan silahlı qüvvələrinə məxsus yalnız "Mi-24" tipli iki helikopter və "Su-25" tipli iki təyyarə mayın 16-da və 17-də uçuşlara cəlb edilib. Helikopterlər mayın 16-da saat 08.45-də Erebuni aerodromundan qalxaraq Vardenis-Zod istiqamətində və geriyə uçuşlar həyata keçiriblər. Təyyarələr isə mayın 17-də saat 09.44-də Ermənistanın Gümrü aerodromundan qalxaraq Sisian istiqamətində uçuş keçirib və dönmə manevri edərək saat 10.45-də Erebunu aerodromuna eniş ediblər.

"Azərbaycan Hava Hücumundan Müdafiə Qoşunlarının radiolokasiya stansiyaları ölkəmizin hava məkanında hərəkət edən bütün aviasiya vasitələrini izləyir və onların uçuş marşrutları barədə məlumatlar dərhal Hərbi Hava Qüvvələrinin Komanda Məntəqəsinə avtomatik rejimdə ötürülür.

Azərbaycan Hava Hücumundan Müdafiə Qoşunları arsenalında olan ən müasir silah kompleksləri ilə ölkəmizin hava hüdudlarını pozan istənilən hava hədəflərini məhv etməyə qadirdir.

Bir daha düşmənin bu kimi informasiya təxribatlarına uymamağa çağırırıq", - deyə nazirliyin açıqlamasında vurğulanıb.

## Ermənistan ordusunda kriminal hadisələr

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində insident baş verib. Əslən Qarabağdan olan erməni hərbçi Ermənistandan olan hərbçilərlə dalaşıb.

Spirtli içki qəbul etdikdən sonra sərxoş vəziyyətdə Yerevandan olan xidmət yoldaşını döydüyünə görə taqım komandiri Mxitar Poğosyan 10 sutka müddətinə həbs edilib.

Yerli kafelərin birində yeyib-içdikdən sonra dava salan hərbçilərlə bağlı yerli sakinlər polisə müraciət ediblər.

Davada iştirak edən digər hərbçilərin də izahatları alınıb və hadisə ilə bağlı cinayət işi açılıb.

* * *

Ermənistan ordusu tərəfindən işğal olunmuş Ağdərə rayonu ərazisində yerləşdirilən düşmən bölmələrindən birində nizamnamədən kənar münasibət zəmənində növbəti insident baş verib.

Erməni əsgər zabit tərəfindən döyülüb. Hadisə ilə bağlı öz problemlərini və etirazlarını döyülən əsgərin yaxınları sosial şəbəkədə paylaşıblar. Yaxın qohumlarının yazdığına görə, 15-ci bölükdə xidmət edən əsgər Qaqo Tevonyan komandirləri tərəfindən tez-tez fiziki təzyiqlərə və təhqirlərə məruz qalırmış.

Son dəfə isə komandirin vurduğu zərbələr nəticəsində əsgərin çənəsi sınıb və bir neçə dişi tökülüb. Əsgər Ağdərədə yerləşən hərbi tibb müəssisəsinə yerləşdirilib. Faktla bağlı araşdırma aparılır.

* * *

Ermənistan tərəfindən işğal olunmuş Ağdərə rayonu ərazisində yerləşdirilən düşmən ordusu bölmələrindən birində hərbi hissə komandiri ilə mülki şəxs arasında dava olub.

Araşdırma nəticəsində məlum olub ki, erməni zabit tərəfindən döyülərək qovulan şəxs, hərbi hissədə təmir işləri yerinə yetirən briqadanın iş icraçısıdır.

Gördükləri işin pulunu fəhlələrə ödəyə bilməyən yeməkxana rəisi Ovik Aramyan bunun müqabilində briqada üzvlərinə konserv verməyi qərarına gəlib.

Fəhlələrin həddindən çox konserv istədiyini bəhanə edən alay komandiri Feliks Elazyan onları nalayiq söyüşlərlə təhqir edib. Bunu görən iş icraçısı ilə zabit arasında başlayan mübahisə sonradan əlbəyaxa davaya çevrilib. Nəticədə hər ikisi müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

---

Gizir Rüstəmov Nofəl Rahat oğluna verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Gizir Əsədov Heydər Məmmədağa oğluna verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Cəfərov Zaur Rüstəm oğluna verilmiş vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Orxan HÜSEYNLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 355
Nüsxə 3525